# Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsi



2-ci cild

## Demokratiya mədəniyyəti kompetensiyalarının deskriptorları

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsi

## 2-ci cild

### Demokratiya mədəniyyəti kompetensiyalarının deskriptorları

Avropa Şurası

Fransız nəşri:
*Cadre de reference des competences pour une culture de la democratie – Volume 2*

İmtina

*Bu əsərdə səslənən fikirlər müəlliflərin məsuliyyətidir və mütləq Avropa Şurasının rəsmi siyasətini əks etdirmiyə bilər.*

Bütün hüquqlar qorunur. Bu nəşrin, Kommunikasiya Direktoratının ((F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) yazılı olaraq əvvəlcədən icazə verilmədən, heç bir hissəsi tərcümə edilə bilməz, və hər hansı bir şəkildə çoxaldıla və ya ötürülə və ya hər hansı bir şəkildə elektron (CD-Rom, internet və s.) və ya mexaniki daxil olmaqla kopyalama, qeyd və ya hər hansı məlumat saxlama sisteminə daxil ola bilməz.

Şəkillər: iStockphoto.com
Örtük dizaynı və düzeni:
Sənədlər və Nəşrlər İstehsalat İdarəsi (SPDP), Avropa Şurası

Avropa Şurasın Nəşri
F-67075 Strasburq Cedex
http://book.coe.int

ISBN 978-92-871-8575-4
(üç cildli nəşr)
© Avropa Şurası, Aprel 2018
Avropa Şurasında çap edilmişdir

# Mündəricat

| | |
|---|---|
| Önsöz | 5 |
| Müqəddimə | 7 |
| Təşəkkürlər | 9 |
| Giriş | 11 |
| 1-ci fəsil. Əsas deskriptorlar | 15 |
| 2-ci fəsil. Təsdiq edilmiş deskriptorların toplusu | 25 |
| 3-cü fəsil. Deskriptorların yaradılması, yoxlanılması və dəyərləndirilməsi prosesi | 51 |
| Son | 55 |

# Önsöz

Demokratik qanunlar və institutlar ancaq demokratiya mədəniyyətinə istinad etdikdə effektiv işləyə bilərlər. Təhsil bunun üçün əsasdır. Bunlar Avropa Şurasının 2005-ci ildə Varşavada keçirilmiş dövlət və hökumət başçılarının üçüncü zirvə görüşünün nəticəsi idi. Buna əsasən bizim təşkilatın qarşısına "vətəndaşlarımız arasında demokratik mədəniyyəti təşviq etmək" vəzifəsi qoyuldu. Bunun üçün vacib olan məqam gənclərin müasir, müxtəlif, demokratik cəmiyyətlərdə məsuliyyətli vətəndaş olmaları üçün bilik, dəyər və bacarıqlar əldə etmələrini təmin etməkdir.

O vaxtdan etibarən üzv dövlətlər bu sahədə bir sıra təşəbbüslər irəli sürmüşlər. Vətəndaşlıq təhsilində əksik olan ortaq məqsədlərin tam anlaşılmaması və aydın şəkildə məsələyə diqqətin olmaması idi. Demokratiya mədəniyyəti kompetensiyaları çərçivəmiz bu boşluğu doldurmaq üçün hazırlanmışdır.

Son zamanlarda Avropada bir çox terrorist hücumları buna təcili ehtiyac olduğuna diqqət çəkmişdir. Təhsil zorakı ekstremizm və radikallaşmanın qarşısını almaq üçün orta və uzunmüddətli bir investisiyadır, lakin işə indi başlamaq lazımdır. Bunun fonunda Kompetensiyalar Modeli 2016-cı ildə Brüsseldə keçirilən 25-ci sessiyada Avropa Şurası  Təhsil Nazirlərinin daimi konfransı tərəfindən yekdilliklə xoş qarşılanmışdır. (Çərçivənin 1-ci cildində əhatə olunub)

Bu istinad çərçivəsi Avropa Şurasına üzv dövlətlərdə və ondan kənarda geniş yayılmış müzakirə və sınaqların nəticəsidir. Bu, demokratik cəmiyyətlərimiz üçün ümumi olan prinsiplər üzərində qurulub. Təhsilin bütün səviyyələrində öyrənənlərin aidlik duyğusunu hiss etmələri və yaşadığımız demokratik cəmiyyətlərə öz müsbət töhfələrini vermək üçün lazım olan alətləri və tənqidi anlayışları göstərir. Beləliklə, bu müxtəlif pedaqoji yanaşmalara hörmət edərkən təhsil sistemlərinin fəaliyyətinə ümumi diqqət yetirməyi təklif edir. Çərçivənin məqsədi üzv dövlətlərə təhsili ilə açıq, tolerant və müxtəlif cəmiyyətlər yaratmaqda dəstək olmaqdır. Ümid edirəm ki, onlar bu alətdən istifadə edəcək və faydalanacaqlar.

**Thorbjorn Jagland**

*Avropa Şurasının baş katibi*

# Müqəddimə

Övladlarımız sabah necə bir cəmiyyətdə yaşayacaqlar? Bu sualın cavabının vacib bir hissəsi bu gün verdiyimiz təhsilə əsaslanır. Təhsil gələcəyin qurulmasında vacib rol oynayır və gələcək nəsillər üçün hazırlamaq istədiyimiz dünyanı əks etdirir.

Demokratiya Avropa Şurasının üç sütunundan biridir və üzv dövlətlər arasında bunun gələcək cəmiyyətlərimiz üçün əsas təməl olaraq qalacağına dair heç bir tərəddüd olmamalıdır. İnstitutlarımızın dayanıqlı olmasına baxmayaraq, vətəndaşlarımız təkcə səsvermə hüquqlarını deyil, həm də qurumlarımızın mənimsədiyi dəyərləri yaxşı bilsələr, yalnız o vaxt demokratik bir şəkildə fəaliyyət göstərəcəklər. Təhsil sistemimiz və məktəblərimiz gəncləri aktiv, iştirakçı və məsuliyyətli şəxslər olmağa hazırlamalıdır: yaşadığımız mürəkkəb, multikultural və sürətlə inkişaf edən cəmiyyətlər daha azı ilə heç nə edə bilməz. Kvant hesablama və süni intellektin başlanğıcında uşaqlarımızın gələcəkləri barədə məsuliyyətli qərarlar qəbul etmələrinə kömək edən dəyərlər, yanaşmalar, bacarıqlar, bilik və tənqidi anlayışla təmin olunması daha vacibdir.

Avropa Şurasının Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsinin hazırlanmasının başlanğıc nöqtəsi təhsil sisteminin, məktəblərin və universitetlərin demokratik vətəndaşlığa hazırlığını əsas vəzifələrindən biri etməsinə olan inam idi. Bu, şagirdlərin üzləşdikləri çətinlikləri və qəbul etdikləri qərarların nəticələrini, nələri edə biləcəklərini və nələri etməkdən çəkinməli olduqlarını bilmələrini və dərk etmələrini təmin edir. Bütün bunları etmək üçün yalnız biliklərə deyil, həm də müvafiq kompetensiyalara sahib olmaq lazımdır. Bu Çərçivənin məqsədi həmin kompetensiyaların nələr olduğunu müəyyənləşdirməkdir.

Çərçivənin özü üç cilddən ibarətdir.

Birinci cild geniş tədqiqat və müzakirələrdən sonra beynəlxalq mütəxəssislərdən ibarət çoxşaxəli komanda tərəfindən müəyyənləşdirilən kompetensiyalar modelini özündə ehtiva edir. 20 kompetensiya dörd sahəyə bölünür - dəyərlər, yanaşmalar, bacarıqlar, bilik və tənqidi anlama. Modelin arxa planı onun necə inkişaf etdirildiyi və necə istifadə edilməli olduğu barədə məlumatlarla müşayiət olunur.

2-ci cilddə hər bir kompetensiya üçün təlim hədəfləri və nəticələrini təyin edən bir sıra ifadələr var. Bu deskriptorlar müəllimlərə müəyyən bir kompetensiyaya münasibətdə öyrənənlərin davranışlarını müşahidə etməyə imkan verən tədris şəraitlərini hazırlamağa kömək etmək məqsədi daşıyır. Deskriptorlar 16 üzv dövlətdən olan könüllü məktəblər və müəllimlər tərəfindən sınaqdan keçirilmişdir.

3-cü cilddə, kompetensiyalar modelinin altı təhsil kontekstində necə istifadə olunacağına dair təlimatlar verilir. Növbəti fəsillər daha sonra əlavə ediləcək.

Çərçivə ümumi bir məqsədə sadiq qalaraq, demokratik mədəniyyət üçün kompetensiyaların öyrədilməsinə fərdi yanaşmaları ruhlandırmağa kömək edən bir vasitə kimi təklif olunur. Cildləri müəyyən bir formada istifadə etmək məcburiyyəti olmasa da, bunlar ardıcıl olaraq bütövlükdə nəzərdə tutulmuşdur və tövsiyə edirik ki, müəllimlər özləri qərar verməzdən əvvəl bütün çərçivə ilə tanış olsunlar.

Mən üzv ölkələrə Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsini təqdim etməkdən çox qürur duyuram. Bu, fədakarlıq, məsləhətləşmə və açıqfikirlilik nümunəsi olmuşdur. Ümid edirəm ki, bir çoxunuz bunu təklif olunan şəkildə istifadə edəcəksiniz: gələcək cəmiyyətimizi övladlarımızın belə bir cəmiyyətdə yaşadığı üçün xoşbəxt olduğumuz bir vəziyyətə gətirilməsi səylərinə bir töhfə kimi.

**Snezana Samardzic-Markovic**

*Avropa Şurasının Demokratiya üzrə baş direktoru*

# Təşəkkürlər


## Müəllif qrupu

Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsi Təhsil departamenti tərəfindən aşağıdakı beynəlxalq ekspertlərlə birlikdə hazırlanmışdır:

Martyn Barrett

Luisa de Bivar Black

Michael Byram

Jaroslav Faltyn

Lars Gudmundson

Hilligje van't Land

Claudia Lenz

Pascale Mompoint-Gaillard

Milica Popovic

Calin Rus

Salvador Sala

Natalia Voskresenskaya

Pavel Zgaga

## Avropa Şurası Təhsil Departamenti

Departamentin rəhbəri: Sjur Bergan

Təhsil siyasəti şöbəsinin rəhbəri: Villano Qiriaz

Baş layihə meneceri: Christopher Reynolds

Köməkçilər: Mireille Wendling, Claudine Martin-Ostwald

## Dəstək və yardım

Avropa Şurası Təhsil Departamenti mühüm dəstəyinə görə aşağıdakılara xüsusi təşəkkür edir:

- 2012-ci ildən 2017-ci ilə qədər Andorra Knyazlığının Avropa Şurası üzrə daimi nümayəndələri Josep Dalleres və Esther Rabasa Grau
- 2012-ci ildən 2018-ci ilə qədər Avropa Şurası təhsil siyasəti və təcrübəsi üzrə rəhbər komitənin sədrləri Germain Dondelingert, Jindrich Fryc və Etienne Gilliard

- Gürcüstan Təhsil nazirinin müavini Ketevan Natriashviliyə

Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsinin hazırlanması layihəsi Andorra, Belçika, Kipr, Çex Respublikası, Gürcüstan, Yunanıstan və Norveç təhsil nazirliklərinin fəal dəstəyindən və maliyyə yardımlarından faydalanmışdır.

Təhsil departamenti, eyni zamanda, Avropa Vergeland Mərkəzinə və Timişoara Mədəniyyətlərarası İnstitutuna təlim və sınaqdankeçirmə işlərində köməkliklərinə görə təşəkkür edir.

## Töhfələr

Avropa Şurası Təhsil Departamenti Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsinin hazırlanması zamanı verdiyi əvəzsiz əksəlaqə və töhfələrə görə aşağıdakılara borcludur:

> Erik Amnå, Mattia Baiutti, Léonce Bekemans, Cezar Bîrzea, Lavinia Bracci, Fabiana Cardetti, Marisa Cavalli, Aidan Clifford, Daniel Coste, Que Anh Dang, Leah Davcheva, Darla Deardorff, Miguel Angel García López, Ralf Gauweiler, Rolf Gollob, Fernanda González-Dreher, Richard Harris, Prue Holmes, Bryony Hoskins, Caroline Howarth, Ted Huddleston, Elene Jibladze, Andreas Körber, Ildikó Lázár, Rachel Lindner, Petr Macek, Julia Marlier, Guillaume Marx, David Muller, Natia Natsvlishvili, Oana Nestian Sandu, Reinhild Otte, Stavroula Philippou, Alison Phipps, Agostino Portera, Marzena Rafalska, Monique Roiné, Roberto Ruffino, Florin Alin Sava, Hugh Starkey, Olena Styslavska, Angela Tesileanu, Felisa Tibbitts, Judith Torney-Purta, Angelos Vallianatos, Manuela Wagner, Charlotte Wieslander, Robin Wilson, Ulrike Wolff-Jontofsohn, Fatmiroshe Xhemalaj.

Təhsil departamenti son olaraq səmimi təşəkkürlərini əməkdaşlıq və fədakarlığa görə deskriptorları sınaqdan keçirən müəllim, müəllimtəlimçiləri və məktəb rəhbərlərinə bildirir.



# Giriş

Demokratiya mədəniyyəti kompetensiyaları üçün istinad çərçivəsinin (bundan sonra Çərçivə) 20 kompetensiyasının hər biri üçün kompetensiya deskriptorları hazırlanmış və sınaqdan keçirilmişdir. 1-ci cilddə göstərildiyi kimi, onların iki məqsədi var:

1. Gələcək inkişaf sahələrini və öyrənmə ehtiyaclarını və ya öyrənmə müddətindən sonra əldə edilmiş bacarıqları müəyyənləşdirmək məqsədilə bir şəxs və ya qrup üçün hər bir kompetensiyaya münasibətdə mövcud bacarıq səviyyəsinin qiymətləndirilməsini dəstəkləmək;
2. Rəsmi və qeyri-rəsmi şəraitdə təhsil müdaxilələrinin hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində müəllimlər üçün bir istinad və vasitə kimi xidmət etmək.

Deskriptorlar müəyyən bir kompetensiya səviyyəsinə malik bir insanın konkret müşahidə olunan davranışına aid ifadələrdir.

Bir insanın müşahidə edilə bilən davranışla hər hansı bir kompetensiyanı mənimsəmə səviyyəsini ifadə edə biləcəyi bir çox yol var və bu Demokratiya mədəniyyəti kompetensiyaları üçün də belədir. Bununla belə, kompetensiyaları işlətmək üçün, bir insanın spesifik bir kompetensiyada müəyyən bir səviyyəyə sahib olduğunu etibarlı bir şəkildə göstərə biləcək davranışları müəyyənləşdirməyə ehtiyac var.

Aşağıda təsvir olunan deskriptorlar bu tələbi təmin edirlər, çünki onlar çox sayda təhsil mütəxəssisi ilə sistematik inkişaf və sınaq prosesi nəticəsində əldə edilmiş və

müxtəlif Avropa ölkələrində konkret təhsil şəraitində sınaqdan keçirilmişdir. Bu proses bu cildin 3-cü fəslində təsvir edilmişdir.

Deskriptorların sınaqdan keçirilməsinin nəticəsi olaraq iki qrup deskriptor vardır:

- 1-ci fəsildə üç səriştə səviyyəsindən birini göstərən (başlanğıc, orta və yüksək) hər bir kompetensiya üzrə məhdud sayda deskriptorlardan ibarət 135 əsas deskriptor toplusu təqdim olunur.
- 2-ci fəsil əsas deskriptorlardanbaşqa təsdiqlənmiş deskriptorların də əlavə olunduğu, bəzilərinin müəyyən səriştəlilik səviyyəsi ilə əlaqəli olduğu, digərlərinin isə aralıq mövqedə yerləşdiyi 447 deskriptorun daha inkişaf etmiş bir siyahısını özündə ehtiva edir. (Deskriptorlar müvafiq olaraq BI (başlanğıc-orta) və IA (orta-yüksək) kimi müəyyənləşdirilmişdir) İstinad məqsədləri üçün hər bir deskriptorun xüsusi identifikasiya nömrəsi var və lazım olduqda 1-ci fəsildə verilmiş açar deskriptorların nömrəsi də göstərilmişdir.

Bəzi deskriptorlar bir-birlərinə çox bənzər görünsələr və məna cəhətdən bir-biri ilə yaxından əlaqəli olsalar da, istifadəçilərə seçim təklif etmək üçün daxil edilirlər (və bunlardan birini tərcümə etmək daha asandır).

20 kompetensiyanın 14-də hər səviyyə üçün iki deskriptor verilmişdir. Bu ümumi qaydanın istisnaları aşağıdakılardır.

"Mədəni müxtəlifliyi dəyərləndirmək" hissəsində orta səviyyəyə, "Məsuliyyət" hissəsində yüksək səviyyəyə və "Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama" hissəsində isə başlanğıc səviyyə üçün yalnız bir deskriptor müəyyənləşdirilmişdir.

"Demokratiya, ədalət, düzgünlük, bərabərlik və qanunun aliliyini dəyərləndirmək" hissəsində hər bir səviyyəyə görə üç deskriptor daxil edilmişdir. "Qeyri-müəyyənliyə dözümlülük" hissəsində orta və yüksək səviyyə üçün də üç əsas deskriptor var.

Həmçinin, "Dünyaya dair məlumatlılıq və tənqidi anlayışın" mürəkkəbliyini nəzərə alaraq, başlanğıc və yüksək səviyyələr üçün altı əsas deskriptor və orta səviyyə üçün yeddi əsas deskriptor daxil edilmişdir.

Deskriptorların sınaqdan keçirilməsi zamanı toplanmış məlumatların statistik işlənməsi onların getdikcə artan xarakterini təmin edir. Bu o deməkdir ki, bir insan yüksək səviyyəyə təyin olunmuş bir deskriptorda göstərilmiş davranışları ardıcıl və dəstək olmadan nümayiş etdirdiyi zaman o, orta və başlanğıc səviyyə deskriptorlardakı davranışları da göstərə biləcək. Eyni şəkildə, orta səviyyəli bir deskriptorla bağlı davranışı nümayiş etdirə bilən şəxs başlanğıc səviyyə deskriptoruna uyğun davranışı da nümayiş etdirə biləcək.

Bu, bir insanın müəyyən bir kompetensiya səviyyəsinə çatdıqdan sonra yalnız müvafiq kompetensiyaları mənimsəmə səviyyəsini artıra biləcəyini ifadə etmir. Yaşın artması, sosial mühitdəki dəyişikliklər, travmatik təcrübələr və s. də daxil olmaqla müxtəlif amillər müəyyən kompetensiyalarda müvəqqəti geriləmə yarada bilər və daha yüksək səviyyəyə qayıtmaq üçün əlavə dəstək tələb edə bilər.

Kompetensiya deskriptorları müxtəlif təhsil mütəxəssislərinin təcrübəsi ilə birbaşa əlaqələrini təmin etmək üçün təlim nəticələrinin dilindən istifadə edilərək hazırlanmışdır. Bu o deməkdir ki, hər biri həmin felin obyektini izləyən hərəkət feli ilə başlayır, təsvir

olunan davranış müşahidə olunur və qiymətləndirilir. Birinci cilddə izah edildiyi kimi, kompetensiyaların adətən qruplarda yerləşdirildiyini də nəzərə alsaq, bu, müxtəlif kompetensiyaların deskriptor qruplarından ilk növbədə təhsil fəaliyyətlərinin öyrənmə nəticələrini müəyyənləşdirmək üçün istifadə edilə biləcəyini göstərir. Ancaq bu, sadə bir şəkildə tətbiq edilməməlidir, çünki deskriptorların təkcə müəyyən bir tədris fəaliyyətinin nəticəsi olaraq nailiyyətdən daha çox səriştəliliklə əlaqəsinin olduğunu qeyd etmək lazımdır. Səriştəlilik və nailiyyət arasındakı fərqi müzakirə etmək üçün çərçivənin qiymətləndirmə ilə bağlı 3-cü cildinə nəzər yetirin.

Kompetensiya deskriptorlarının ölçüldüyü üç səriştəlilik səviyyəsi (başlanğıc, orta və yüksək) təhsil səviyyəsi ilə ciddi şəkildə əlaqələndirilməməlidir. Xüsusilə bilik və tənqidi anlama ilə əlaqəli elementlər var ki, bunlar yüksək səviyyənin təhsilin daha yuxarı səviyyələrində mümkün olan elementlərdir. Ancaq dəyərlər, münasibətlər və bacarıqlarla bağlı bir çox element daha sonra daha dərin səviyyədə inkişaf etdirilsə belə erkən yaşdan əldə edilə bilər.

Kompetensiya deskriptorlarından istifadə müşahidə ilə sıx bağlıdır. Mütəmadi olaraq həyata keçirilən müşahidə tədris və təlim prosesinin bir hissəsinə çevrilir. Gündəlik peşə həyatlarında müəllimlər, öyrənənlərin təcrübəli müşahidəçiləridir, hətta onlar çox vaxt nəyi, necə müşahidə etdiklərini və müşahidə nəticələrini necə yönləndirdiklərini bilməsələr belə. Ancaq demokratik mədəniyyət kompetensiyaları kontekstində öyrənənlərin davranışlarını müşahidə edərkən və deskriptorları istinad olaraq götürərkən, prosesin məqsədyönlü aparılması və diqqətlə planlaşdırılması lazımdır.

Bu çərçivədə bir neçə aspekt nəzərə alınmalıdır:

- Müşahidəni öyrənmə prosesini pozmayan və ya öyrənən insanı narahatedici vəziyyətdə qoymayacaq şəkildə etmək lazımdır.
- Müşahidə müxtəlif halları, o cümlədən öyrənənin müəyyən tapşırıqlara cavabını, sinifdə fərdi şəkildə görülən işləri, sinif fəaliyyəti zamanı müəllim və həmyaşıdları ilə qarşılıqlı münasibətləri, həmçinin fasilələr zamanı, dərsdən əvvəl və sonra və ya dərsdənkənar fəaliyyət zamanı olan davranışları əhatə etməlidir.
- Demokratiya mədəniyyəti kompetensiyaları qruplarda yerləşdirildiyindən, müəyyən bir vəziyyətlə əlaqəli davranış yalnız bir deskriptora deyil, bir deskriptor qrupuna aid ola bilər.
- Deskriptorların istifadəsi təkcə müşahidəni deyil, həm də müşahidə olunan davranışın qeydiyyata alınmasını asanlaşdırır: müşahidə olunan davranışın tam təsvirini yazmaqdansa, müvafiq deskriptorlara aid kodu qeyd etmək daha asandır. Keyfiyyətli müşahidə yazılı qeydlərdən istifadə edir və yaddaşa etibar etmir.
- Müşahidə verbal, para-verbal və qeyri-verbal davranışa diqqət yetirməli, eləcə də deyilən və görülən işlərdən əlavə olaraq göz kontaktı, yanaşmalar, duyğuların ifadə olunması və s. kimi aspektləri nəzərə almalıdır.
- Müəyyən bir deskriptorda əks olunan davranışın müşahidəsi ardıcıl şəkildə, müəyyən müddət ərzində aparılmalı və sadəcə ilk təəssürata, şəxsi inanclara, gözləntilərə və müşahidəçinin qərəzlərinə, ya da müəyyən bir məqama və ya bir fəaliyyətə etibar etməməlidir. Müəyyən davranışın nümayişi də təsadüfi ola və ya müşahidəçinin bilmədiyi amillər nəticəsində yarana bilər, halbuki davranışın

nümayişin olunmaması öyrənənə müvafiq davranışı göstərmək üçün lazımi imkan verilməməsinin nəticəsi ola bilər.

Dinləmə və müşahidə bacarıqları demokratiya mədəniyyəti kompetensiyaları çərçivəsinin vacib bir komponenti olduğu üçün həm müəllimlər, həm də öyrənənlər bunları inkişaf etdirə bilər və etdirməlidirlər. Bu çərçivədə həmyaşıdların bir-birini müşahidə etməsi bu bacarıqlarını inkişaf etdirmək üçün təsirli bir vasitə ola bilər.

Deskriptorlara əsaslanan davranışın müşahidəsi öyrənmə çatışmazlıqlarının diaqnozu, yaxşı hədəflənmiş fərdi planların işlənib hazırlanması üçün, həmçinin təməl və/və ya fərqli strategiyalardan müvafiq istifadə üçün effektiv bir vasitədir.

Deskriptorların istifadəsi ilə bağlı digər məsələlər, habelə sui-istifadə risklərinin bəzilərinin təhlili çərçivənin 1-ci cildində deskriptorlar bölməsində verilmişdir.

Deskriptorların kurikulumun hazırlanmasında, qiymətləndirmədə, tədris fəaliyyətinin tərtibində və həyata keçirilməsində, həmçinin çərçivədən bütöv məktəb yanaşmasından istifadənin planlaşdırılmasında necə istifadə oluna biləcəyi ilə bağlı müzakirələr 3-cü cildin müvafiq fəsillərində təqdim olunur.



1-ci fəsil

# əsas deskriptorlar

## Də yə rlə r

### 1. İnsan ləyaqəti və insan hüquqlarına dəyər vermək

| | | |
|---|---|---|
| 1. | İnsan hüquqlarının hər zaman qorunmalı və hörmət edilməli olduğunu müdafiə edir. | (başlanğıc) |
| 2. | Uşaqların xüsusi hüquqlarının cəmiyyət tərəfindən qorunmalı və hörmət edilməli olduğunu müdafiə edir. | (başlanğıc) |
| 3. | Heç kimin işgəncəyə, qeyri-insani, alçaldıcı rəftara və ya cəzaya məruz qalmamalı olduğunu müdafiə edir. | (orta) |
| 4. | Bütün dövlət qurumlarının insan hüquqlarına hörmət etməli, onları qorumalı və yerinə yetirməli olduqlarını müdafiə edir. | (orta) |
| 5. | İnsanların həbs olunmasına və məhdudiyyətlərə məruz qalmasına baxmayaraq, onların hamıdan daha az hörmət və ləyaqətə layiq olmadıqları fikrini müdafiə edir. | (yüksək) |
| 6. | Bütün qanunların beynəlxalq insan hüquqları norma və standartlarına uyğun olması fikrini ifadə edir. | (yüksək) |

## 2. Mədəni müxtəlifliyi dəyərləndirmək

| | | |
|---|---|---|
| 7. | Cəmiyyətdə başqalarının fərqli inanclarına dözümlülük nümayiş etdirməli olduğumuz fikrini təşviq edir. | (başlanğıc) |
| 8. | Bir-birindən «fərqli» olduğu qəbul edilən insanlar və qruplar arasında qarşılıqlı anlaşma və mənalı dialoq üçün həmişə səy göstərməli olduğu fikrini ifadə edir. | (başlanğıc) |
| 9. | Bir cəmiyyət daxilindəki mədəni müxtəlifliyin müsbət dəyərləndirilməli və qiymətləndirilməli olduğu fikrini ifadə edir. | (orta) |
| 10. | Fərqli şəxsiyyətlərimizi və mədəni mənsubiyyətlərimizi tanımağımıza kömək etmək üçün mədəniyyətlərarası dialoqdan istifadə edilməli olduğunu müdafiə edir. | (yüksək) |
| 11. | Mədəniyyətlərarası dialoqdan hörmət və «birlikdə yaşamaq» mədəniyyətini inkişaf etdirmək üçün istifadə edilməli olduğunu müdafiə edir. | (yüksək) |

## 3. Demokratiya, ədalət, düzgünlük, bərabərlik və qanunun aliliyini dəyərləndirmək

| | | |
|---|---|---|
| 12. | Məktəblərin şagirdlərə demokratiyanı və demokratik bir vətəndaş olaraq necə davranmağı öyrətməli olduqlarını əks etdirir. | (başlanğıc) |
| 13. | Bütün vətəndaşlara qanunla bərabər və qərəzsiz davranılması fikrini ifadə edir. | (başlanğıc) |
| 14. | Qanunların hər zaman ədalətli şəkildə tətbiq edilməli və həyata keçirilməli olduğunu müdafiə edir. | (başlanğıc) |
| 15. | Demokratik seçkilərin hər zaman beynəlxalq standartlara və milli qanunvericiliyə uyğun olaraq, azad, ədalətli və heç bir saxtakarlıq olmadan keçirilməsinin vacibliyini müdafiə edir. | (orta) |
| 16. | Dövlət məmurunun səlahiyyətindən sui-istifadə etməməsi və qanuni səlahiyyətlərinin hüdudlarını keçməməsi fikrini ifadə edir. | (orta) |
| 17. | İnsanların məhkəmələrin çox bahalı, əziyyətli və ya mürəkkəb olduğu üçün bir məhkəmə işinə baxma imkanından məhrum edilməməsi üçün məhkəmələrin hər kəs üçün əlçatan olması fikrini dəstəkləyir. | (orta) |
| 18. | Qanunverici hakimiyyətin həvalə olunduğu şəxslərin qanuna və müvafiq konstitusiya nəzarətinə alınması fikrinə dəstəyi ifadə edir. | (yüksək) |
| 19. | Dövlət siyasəti və onun həyata keçirilməsi ilə bağlı məlumatların ictimaiyyətə açıq olmasına dair fikirləri ifadə edir. | (yüksək) |
| 20. | Dövlət orqanlarının vətəndaş hüquqlarını pozan hərəkətlərinə qarşı təsirli vasitələrin lazım olduğunu müdafiə edir. | (yüksək) |

## Yanaşmalar

### 4. Mədəni fərqliliyə açıqlıq

| | | |
|---|---|---|
| 21. | İnsanların inancları, dəyərləri, ənənələri və dünyagörüşlərini öyrənməyə maraq göstərir. | (başlanğıc) |
| 22. | Digər ölkələrə səyahət etmək marağını ifadə edir. | (başlanğıc) |
| 23. | Digər inanclar və anlayışlar, mədəni mənsubiyyətlər və meyllər haqqında marağı ifadə edir. | (orta) |
| 24. | Digər mədəniyyətlərin təcrübədən keçirilməsi imkanının qiymətləndirilməsini ifadə edir. | (orta) |
| 25. | Fərqli dəyərlərə, adətlərə və davranışlara sahib insanlarla tanış olmaq üçün imkanlar axtarır və xoş qarşılayır. | (yüksək) |
| 26. | Başqalarının mədəniyyətləri ilə tanış olmaq üçün digər insanlarla əlaqə yolları axtarır. | (yüksək) |

### 5. Hörmət

| | | |
|---|---|---|
| 27. | Başqalarına özlərini ifadə etmək üçün imkan verir. | (başlanğıc) |
| 28. | Digər insanlara bərabərhüquqlu insan kimi hörməti ifadə edir. | (başlanğıc) |
| 29. | Mədəni mənşəyindən asılı olmayaraq bütün insanlara hörmətlə yanaşır. | (orta) |
| 30. | Özündən fərqli bir sosial-iqtisadi statuslu insanlara hörməti ifadə edir. | (orta) |
| 31. | Dini fərqliliklərə hörməti ifadə edir. | (yüksək) |
| 32. | Özündən fərqli siyasi fikirləri olan insanlara hörməti ifadə edir. | (yüksək) |

### 6. Vətəndaş təfəkkürü

| | | |
|---|---|---|
| 33. | Digərləri ilə işləmək və əməkdaşlıq etmək istəyini ifadə edir. | (başlanğıc) |
| 34. | Ümumi maraqları üçün digər insanlarla əməkdaşlıq edir. | (başlanğıc) |
| 35. | Başqalarının ləyaqəti və hüquqları pozulduqda müşahidəçi qalmamaq öhdəliyini ifadə edir. | (orta) |
| 36. | Cəmiyyətin daha yaxşı olması üçün nə edilə biləcəyini müzakirə edir. | (orta) |
| 37. | Yerli, milli və ya qlobal səviyyədə aktiv vətəndaşlıq vəzifə və öhdəliklərini yerinə yetirir. | (yüksək) |
| 38. | Vətəndaşlıq məsələləri barədə məlumatlı olmaq üçün tədbirlər görür. | (yüksək) |

## 7. Məsuliyyət

| | | |
|---|---|---|
| 39. | Etdiyi hərəkətlərə görə məsuliyyət daşıdığını göstərir. | (başlanğıc) |
| 40. | əgər kiminsə hisslərini incidirsə, üzr istəyir. | (başlanğıc) |
| 41. | Tələb olunan işləri vaxtında təqdim edir. | (orta) |
| 42. | Öz səhvləri üçün məsuliyyət daşıdığını göstərir. | (orta) |
| 43. | Başqaları üçün götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirir. | (yüksək) |

## 8. Şəxsi səmərəlilik

| | | |
|---|---|---|
| 44. | Məsələləri anlama bacarığına olan inamı ifadə edir. | (başlanğıc) |
| 45. | Planlaşdırdığı işləri həyata keçirə bilməsinə olan inamını ifadə edir. | (başlanğıc) |
| 46. | Məqsədə gedən yolda qarşıya çıxan maneələri dəf etmək üçün öz bacarığına olan inamı ifadə edir. | (orta) |
| 47. | Dəyişmək istəyirsə, bunu edə biləcəyinə olan əminliyini ifadə edir. | (orta) |
| 48. | Həyatın çətinlikləri ilə rastlaşdıqda qabiliyyətinə görə özünü etibarlı hiss etdiyini göstərir. | (yüksək) |
| 49. | Bacarıqlılığına görə gözlənilməz halları necə həll edə biləcəyinə olan inamı göstərir. | (yüksək) |

## 9. Qeyri-müəyyənliyə dözümlülük

| | | |
|---|---|---|
| 50. | Fərqli düşüncə tərzi olan insanlarla yaxşı ünsiyyət qurur. | (başlanğıc) |
| 51. | Başqa insanlar haqqında mühakimələri müvəqqəti olaraq dayandıra biləcəyini göstərir. | (başlanğıc) |
| 52. | Tanış olmayan vəziyyətlərdə rahatdır. | (orta) |
| 53. | Qeyri-müəyyənliyin öhdəsindən müsbət və konstruktiv şəkildə gəlir. | (orta) |
| 54. | Gözlənilməz şəraitlərdə yaxşı işləyir. | (orta) |
| 55. | Öz fikir və dəyərlərinin sorğulanmasına olan istəyini ifadə edir | (yüksək) |
| 56. | Qeyri-müəyyən problemlərin həllindəki çətinliklərin öhdəsindən gəlməkdən zövq alır. | (yüksək) |
| 57. | Mürəkkəb vəziyyətlərin həllindən zövq aldığını ifadə edir. | (yüksək) |

## Bacarıqlar

### 10. Müstəqil öyrənmə bacarıqları

| | | |
|---|---|---|
| 58. | Öyrənmə üçün lazım olan mənbələri (məsələn, insanlar, kitablar, internet) müəyyənləşdirmək bacarığını göstərir. | (başlanğıc) |
| 59. | Lazım olduqda digər insanlardan yeni məlumatların aydınlaşdırılmasını istəyir. | (başlanğıc) |
| 60. | Minimum nəzarət ilə yeni mövzular haqqında məlumat əldə edə bilir | (orta) |
| 61. | Öz işinin keyfiyyətini qiymətləndirə bilir | (orta) |
| 62. | Mövcud sahədən ən etibarlı məlumat mənbələrini və ya məsləhətlərini seçə bilir | (yüksək) |
| 63. | Birbaşa nəzarət olmadan tapşırıqları izləmək, müəyyənləşdirmək, prioritetləşdirmək və tamamlamaq bacarığını göstərir. | (yüksək) |

### 11. Analitik və tənqidi düşünmə bacarıqları

| | | |
|---|---|---|
| 64. | Yeni məlumatlarla artıq bilinənlər arasındakı oxşarlıq və fərqləri müəyyən edə bilir. | (başlanğıc) |
| 65. | Rəylərini dəstəkləmək üçün sübutlardan istifadə edir. | (başlanğıc) |
| 66. | Fərqli variantlarla əlaqəli riskləri qiymətləndirə bilir. | (orta) |
| 67. | İstifadə etdiyi məlumatların düzgün olub-olmadığı barədə düşündüyünü göstərir. | (orta) |
| 68. | Təhlil olunan materiallarda hər hansı bir uyğunsuzluq, fərqlilik və ya fikir ayrılıqlarını aşkar edə bilir. | (yüksək) |
| 69. | Qərar vermək üçün açıq və müəyyənləşdirilmiş meyarlar, prinsiplər və dəyərlərdən istifadə edə bilir. | (yüksək) |

### 12. Dinləmək və müşahidə etmək bacarıqları

| | | |
|---|---|---|
| 70. | Fərqli fikirləri diqqətlə dinləyir. | (başlanğıc) |
| 71. | Digər insanları diqqətlə dinləyir. | (başlanğıc) |
| 72. | Danışanın dediklərinin mənasını anlamaq üçün jest və bədən dilinə baxır. | (orta) |
| 73. | Başqasının fikir və niyyətlərini müəyyən etmək üçün effektiv dinləyə bilir. | (orta) |
| 74. | Başqalarının demədiyi, ancaq nəyi nəzərdə tutduğuna diqqət yetirir. | (yüksək) |
| 75. | Digər mədəni mənşəli insanların eyni vəziyyətə fərqli şəkildə reaksiya verdiklərini başa düşür. | (yüksək) |

## 13.Empatiya

| | | |
|---|---|---|
| 76. | Yoldaşının köməyə ehtiyacı olduqda onu anlaya bilir. | (başlanğıc) |
| 77. | Başqa insanların başına gələn pis hadisələrə görə şəfqət ifadə edir. | (başlanğıc) |
| 78. | Dostlarını onların perspektivindən baxdıqda hadisələrin necə göründüyünü təsəvvür edərək onları daha yaxşı başa düşməyə çalışır. | (orta) |
| 79. | Qərar verərkən digər insanların hisslərini nəzərə alır. | (orta) |
| 80. | Başqa ölkələrdəki insanlar haqqında düşünəndə onların sevinc və kədərlərini bölüşdüyünü ifadə edir. | (yüksək) |
| 81. | Başqalarının hisslərini, hətta onlar bunu göstərmək istəmədikləri zaman da dəqiq müəyyənləşdirir | (yüksək) |

## 14. Çeviklik və uyğunlaşma

| | | |
|---|---|---|
| 82. | Bunun tələb olunduğu məntiqli arqumentlə göstərilərsə, fikirlərini dəyişir. | (başlanğıc) |
| 83. | Bu qərarların nəticələri bunun tələb olunduğunu göstərirsə, qəbul etdiyi qərarları dəyişdirə bilər | (başlanğıc) |
| 84. | Yeni bacarıqdan istifadə edərək yeni vəziyyətlərə uyğunlaşır. | (orta) |
| 85. | Bilikləri fərqli bir şəkildə tətbiq edərək yeni vəziyyətlərə uyğunlaşır. | (orta) |
| 86. | Başqa mədəni hədəf qrupların sosial-mədəni adətlərini bu qrupların üzvləri ilə ünsiyyət qurarkən qəbul edir. | (yüksək) |
| 87. | Öz davranışını digər mədəniyyətlərə uyğunlaşdırmaq üçün dəyişdirə bilir. | (yüksək) |

## 15. Linqvistik, kommunikativ və plurilinqual (çoxdillilik) bacarıqlar

| | | |
|---|---|---|
| 88. | Bir problem barədə fikirlərini ifadə edə bilir. | (başlanğıc) |
| 89. | Aydın olmadığı halda natiqlərdən dediklərini təkrar etmələrini xahiş edir. | (başlanğıc) |
| 90. | Başqalarının mövqelərini anladığını göstərən suallar verir. | (orta) |
| 91. | Nəzakətini başqa bir dildə ifadə etməyin müxtəlif yollarını mənimsəyə bilir. | (orta) |
| 92. | Yazılı, şifahi tərcümə və ya izah etməklə mədəniyyətlərarası mübadilədə linqvistik olaraq vasitəçilik edə bilir. | (yüksək) |
| 93. | Mədəniyyətlərarası anlaşılmazlıqların qarşısını uğurla ala bilir. | (yüksək) |

## 16. əməkdaşlıq bacarıqları

| | | |
|---|---|---|
| 94. | Qrupdakı digər insanlarla müsbət münasibətlər qurur. | (başlanğıc) |
| 95. | Bir qrupun üzvü kimi işləyərkən qrup işlərindən üzərinə düşən hissəni götürür. | (başlanğıc) |
| 96. | Qrup məqsədlərinə çatmaq üçün fikir birliyi yaratmağa çalışır. | (orta) |
| 97. | Qrup üzvü kimi işləyərkən digərlərinə hər hansı müvafiq və ya faydalı məlumat barədə informasiya verir. | (orta) |
| 98. | Ümumiməqsədləri həyata keçirmək üçün qrup üzvləri arasında həvəs yaradır. | (yüks ək) |
| 99. | Başqaları ilə işləyərkən, fikir ayrılıqlarına baxmayaraq digərlərini dəstəkləyir. | (yüks ək) |

## 17. Münaqişələri həll etmək bacarıqları

| | | |
|---|---|---|
| 100. | Münaqişə edən tərəflərlə hörmətlə ünsiyyət qura bilir. | (başlanğıc) |
| 101. | Münaqişələrin həlli üçün variantları müəyyənləşdirə bilir. | (başlanğıc) |
| 102. | Mövcud variantları daha yaxşı başa düşməklə başqalarına münaqişələrin həllində kömək edə bilir. | (orta) |
| 103. | Münaqişələrdə iştirak edən tərəfləri bir-birlərini fəal dinləməyə, problem və narahatlıqları bölüşməyə təşviq edə bilər. | (orta) |
| 104. | Şəxslərarası münaqişələrin həllinə kömək etmək üçün müntəzəm olaraq ünsiyyətə başlayır. | (yüks ək) |
| 105. | Münaqişəli vəziyyətlərdə digər insanların emosional gərginliyi, narahatlığı və inamsızlığı ilə effektiv mübarizə apara bilər. | (yüks ək) |

# Bilik və tə nqidi anlama

## 18. Bilik və tənqidi özünü anlama

| | | |
|---|---|---|
| 106. | Öz motivasiyasını təsvir edə bilir. | (b) |
| 107. | Düşüncə və duyğularının davranışına təsir etmə yollarını təsvir edə bilir. | (b) |
| 108. | Öz dəyər və inanclarını tənqidi şəkildə ifadə edə bilir. | (o) |
| 109. | Özü haqqında bir çox fərqli nöqteyi-nəzərdən tənqidi düşünə bilir. | (o) |
| 110. | Öz qərəz və stereotiplərini, eləcə də onların arxasında duran məsələləri tənqidi şəkildə ifadə edə bilir. | (y) |
| 111. | Bir çox fərqli vəziyyətlərdə öz duyğu və hisslərini tənqidi şəkildə ifadə edə bilir. | (y) |

## 19. Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama

| | | |
|---|---|---|
| 112. | Səs tonu, göz təması və bədən dilinin ünsiyyətə necə kömək etdiyini izah edə bilir. | (b) |
| 113. | Müxtəlif ünsiyyət üslubları olan şəxslər üzərində sosial təsir və nəticələri təsvir edə bilir. | (o) |
| 114. | Sosial əlaqələrin bəzən danışıqlarda istifadə olunan linqvistik formalarda necə kodlandığını izah edə bilir (məsələn, salamlaşma, müraciət formaları, söyüşdən istifadə) | (o) |
| 115. | Digər mədəni mənsubiyyətli insanların öz perspektivləri baxımından mənalı olan müxtəlif verbal və qeyri-verbal ünsiyyət vərdişlərini niyə izlədiklərini izah edə bilər. | (y) |
| 116. | Ən azı bir başqa sosial qrupda və ya mədəniyyətdə istifadə olunan fərqli ünsiyyət vərdişlərini tənqidi şəkildə ifadə edə bilər. | (y) |

## 20. Dünya haqqında məlumatlılıq və tənqidi anlayış (siyasət, hüquq, insan hüquqları, mədəniyyətlər, dinlər, tarix, media, iqtisadiyyat, ətraf mühit və dayanıqlılıq daxil olmaqla)

| | | |
|---|---|---|
| 117. | Demokratiya, azadlıq, vətəndaşlıq, hüquq və vəzifələr də daxil olmaqla əsas siyasi anlayışların mənasını izah edə bilir. | (b) |
| 118. | Hər kəsin niyə digərlərinin insan hüquqlarına hörmət etmək məsuliyyətinin olduğunu izah edə bilir. | (b) |
| 119. | Başqa bir mədəniyyətdə əsas mədəniyyət təcrübələrini (məsələn, yemək vərdişləri, salamlama qaydaları, insanlara müraciət yolları, nəzakət) təsvir edə bilir. | (b) |
| 120. | Öz dünya görüşünün necə bir çox dünya görüşündən yalnızca biri olduğunu tənqidi şəkildə ifadə edə bilir. | (b) |
| 121. | Cəmiyyətin təbii dünyaya təsirini, məs. əhalinin artması, inkişafı, resurs istehlakı baxımından qiymətləndirə bilir. | (b) |
| 122. | Ətraf mühitə zərərli riskləri tənqidi şəkildə ifadə edə bilir. | (b) |
| 123. | İnsan hüquqlarının universal, vahid və ayrılmaz tərəfini izah edə bilir. | (o) |
| 124. | Qloballaşan dünyada insan hüquqları, demokratiya, sülh və təhlükəsizlik arasındakı əlaqəni tənqidi şəkildə ifadə edə bilir. | (o) |
| 125. | İnsan hüquqlarının pozulmasının əsas səbəblərini, o cümlədən insan hüquqlarının pozulmasına səbəb olan proseslərdə stereotiplərin və qərəzlərin rolunu tənqidi şəkildə əks etdirə bilir. | (o) |
| 126. | Fərdi davranışlardan bütöv bir mədəniyyətə ümumiləşdirmənin təhlükələrini izah edə bilir. | (o) |
| 127. | Dini simvollar, dini ayinlər və dilin dini baxımdan istifadəsi ilə bağlı fikirləri tənqidi şəkildə ifadə edə bilir. | (o) |

| | | |
|---|---|---|
| 128. | Müasir dünyada təbliğatın təsirlərini təsvir edə bilir. | (o) |
| 129. | İnsanların təbliğata qarşı özlərini necə qoruya biləcəklərini izah edə bilir. | (o) |
| 130. | Vətəndaşların siyasətə təsir göstərmələrinin müxtəlif yollarını təsvir edə bilir. | (y) |
| 131. | İnsan hüquqları çərçivəsinin dəyişən təbiətini və dünyanın müxtəlif bölgələrində insan hüquqlarının davamlı inkişafını tənqidi şəkildə ifadə edə bilir. | (y) |
| 132. | Niyə sabit özünəxas xüsusiyyətlərə malik mədəniyyət qruplarının olmadığını izah edə bilir. | (y) |
| 133. | Bütün dini qrupların niyə daim inkişaf etdiyini və dəyişdiyini izah edə bilir. | (y) |
| 134. | Tarixlərin tez-tez etnosentrik nöqteyi-nəzərdən necə təqdim edildiyi və öyrədildiyi barədə fikirlərini tənqidi şəkildə əks etdirə bilir. | (y) |
| 135. | Milli iqtisadiyyatları, iqtisadi və maliyyə proseslərinin cəmiyyətin fəaliyyətinə necə təsir etdiyini izah edə bilir. | (y) |



2-ci fəsil

# Təsdiq edilmiş deskriptorların toplusu

Bu, konkret təhsil şəraitində sınaqdan keçirilməklə təsdiqlənmiş deskriptorların tam toplusudur. Başlanğıc və orta səviyyələr arasında və ya orta və yüksək səviyyələr arasında olan deskriptorlar cədvəllərdə müvafiq olaraq BI(başlanğıc-orta) və IA(orta-yüksək) olaraq təyin edilmişdir. Deskriptorların necə hazırlanıb sınaqdan keçirildiyi barədə tam məlumat üçün 3-cü fəsilə baxın:

## Də yə rlə r

### 1. İnsan ləyaqətini və insan hüquqlarını qiymətləndirmək

| ID | Təsvir | Təsnifat |
|---|---|---|
| 101. | İnsan hüquqlarının hər zaman qorunmalı və hörmət edilməli olduğunu müdafiə edir. | (b) |
| 102. | Uşaqların konkret hüquqlarının cəmiyyət tərəfindən hörmət edilməli və qorunmalı olduğunu müdafiə edir. | (b) |
| 103. | Hər kəsin hər bir insanın əsas azadlıqlarını tanıması lazım olduğunu müdafiə edir. | (b) |
| 104. | Heç kimin işgəncəyə, qeyri-insani, alçaldıcı rəftara və ya cəzaya məruz qalmamalı olduğunu müdafiə edir. | (o) |

| ID | Təsvir | Təsnifat |
|---|---|---|
| 105. | Bütün dövlət qurumlarının insan hüquqlarına hörmət etməli, onları qorumalı və yerinə yetirməli olduqlarını müdafiə edir. | (o) |
| 106. | İnsan hüquqlarının hər bir insanın ləyaqətlə yaşaya bilməsi üçün tələb olunduğu fikrini müdafiə edir. | (o) |
| 1630 | Açar 99 | Başqaları ilə işləyərkən fikir ayrılıqlarına baxmayaraq digər insanları dəstəkləyir | Çətin |
| 1631 | | Digər insanlarla əməkdaşlıq şəraitində işləmək imkanları axtarır | Çətin |
| 1632 | | Görüləcək bir iş olduqda, digər insanları özü ilə birgə işləməyə cəlb edir | Çətin |
| 1633 | | Digər qrup üzvlərini mövzu ilə əlaqəli və faydalı biliklərini, təcrübələrini və ya ekspertizalarını paylaşmağa inandıra bilir | Çətin |
| 1634 | | Öhdəliklərini yerinə yetirmək üçün digər insanları fəaliyyət planlarının tərtibinə və inkişaf etdirilməsinə cəlb edir | Çətin |

## 17. Münaqişələri həll etmə bacarıqları

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 1701 | Açar 100 | Münaqişə edən tərəflərlə hörmət çərçivəsində əlaqə qura bilir | Asan |
| 1702 | Açar 101 | Münaqişələrin həll yollarını müəyyənləşdirə bilir | Asan |
| 1703 | | Münaqişələri həll etmək üçün başqaları ilə birlikdə işləyir | Asan |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 1704 | | Münaqişələrin praktiki həll yollarını tapmaq bacarığı göstərir | Asan Orta |
| 1705 | | Ümumi maraqları müəyyənləşdirmək üçün münaqişə tərəflərini dinləyə bilir | Asan Orta |
| 1706 | | Başqalarının fikirlərinə hörmətlə yanaşaraq münaqişələri həll etməyə çalışır | Asan Orta |
| 1707 | | Fikir ayrılıqlarını necə aradan qaldırmağı müəyyənləşdirməkdə başqalarına kömək edir | Asan Orta |
| 1708 | | Münaqişələrin həlli metodu olaraq fəal dinləmə və açıq müzakirəni təşviq edə bilir | Asan Orta |
| 1709 | | Münaqişəyə cəlb olunan insanlara müvafiq qaydada yanaşa bilir | Asan Orta |
| 1710 | Açar 102 | Mövcud imkanlar barədə məlumatlılığı artırmaqla başqalarına münaqişələrin həllində kömək edə bilir | Orta |
| 1711 | Açar 103 | Münaqişəyə cəlb olunan tərəfləri bir-birlərini fəal dinləməyə, problem və narahatlıqlarını bölüşməyə təşviq edə bilir | Orta |
| 1712 | | Münaqişələrdə hər iki tərəfə faydalı olan həll yollarını tapır | Orta |
| 1713 | | Əvvəlki fikir ayrılıqlarını həll edə bilməmiş qarşıdurma yaşayan insanlar arasındakı ünsiyyəti asanlaşdırır | Orta |
| 1714 | | Münaqişələri həll etmək üçün danışıq aparmaq bacarıqlarından istifadə edə bilir | Orta |
| 1715 | | Münaqişə tərəflərinə razılığa gələ biləcəkləri ortaq zəmin tapmaqda kömək edə bilir | Orta |
| 1716 | Açar 104 | Şəxslərarası münaqişələrin həllinə kömək etmək üçün mütəmadi olaraq ünsiyyətə təşəbbüs göstərir | Çətin |
| 1717 | Açar 105 | Münaqişəli vəziyyətlərdə digər insanların emosional gərginlik, narahatlıq və inamsızlıq hissləri ilə fəal şəkildə mübarizə aparır | Çətin |
| 1718 | | Münaqişə tərəflərini münaqişənin optimal və hər iki tərəfin qəbul edəcəyi həll yolları barədə razılığa gəlməyə yönləndirə bilir | Çətin |
| 1719 | | Münaqişələri həll edərkən müvafiq problemə diqqətini yönəldir və əlaqəsiz yaxud ikinci dərəcəli məsələlərin nəticələrə təsir göstərməsinə mane olur | Çətin |
| 1720 | | Münaqişələrin mümkün kompromislər və ya həll yollarını müəyyənləşdirə bilir | Çətin |

## Bilik və tənqidi anlama

### 18. Bilik və tənqidi özünü anlama

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 1801 | Açar 106 | Şəxsi motivasiya üsullarını təsvir edə bilir | Asan |
| 1802 | Açar 107 | Duyğu və düşüncələrinin davranışına necə təsir göstərdiyini təsvir edə bilir | Asan |
| 1803 | | Şəxsi motivlərinə, ehtiyac və məqsədlərinə tənqidi yanaşmağı bacarır | Asan Orta |
| 1804 | | Şəxsi xüsusiyyətlərinin müxtəlif situasiyalarda davranışına necə təsir etdiyini izah edə bilir | Asan Orta |
| 1805 | Açar 108 | Öz dəyər və inanclarına tənqidi yanaşmağı bacarır | Orta |
| 1806 | Açar 109 | Bir sıra fərqli nöqteyi-nəzərdən özünə tənqidi yanaşmağı bacarır | Orta |
| 1807 | | Digər insanların onu necə dərk etməsinə tənqidi yanaşa bilir | Orta Çətin |
| 1808 | | Duyğu və düşüncələrinin davranışına necə təsir göstərdiyinə tənqidi yanaşmağı bacarır | Orta Çətin |
| 1809 | | Özünün dünyaya baxışına tənqidi yanaşmağı bacarır | Orta Çətin |
| 1810 | Açar 110 | Qərəz və stereotiplərinə və bunun arxasında nəyin dayandığına tənqidi yanaşmağı bacarır | Çətin |
| 1811 | Açar 111 | Müxtəlif situasiyalarda öz duyğu və hisslərinə tənqidi yanaşa bilir | Çətin |
| 1812 | | Öz mədəni mənsubiyyətinin qərarlarına necə təsir göstərdiyinə tənqidi yanaşa bilir | Çətin |
| 1813 | | Mədəniyyətlərarası inkişafına təsir göstərmiş amillərə tənqidi yanaşmağı bacarır | Çətin |

### 19. Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 1901 | Açar 112 | Səs tonu, göz təması və bədən dilinin ünsiyyətə necə kömək edə biləcəyini izah edə bilir | Asan |
| 1902 | Açar 113 | Müxtəlif ünsiyyət üslublarının başqaları üzərində effektlərini və sosial təsirini təsvir edə bilir | Orta |
| 1903 | Açar 114 | Sosial əlaqələrin bəzən danışıqlarda istifadə olunan linqvistik formalarda necə kodlaşdırıldığını izah edə bilir (məsələn, salamlaşmada, müraciət formalarında, ara sözlərdə) | Orta |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 1904 | | Müxtəlif dil formalarının fərqli situasiyalarda və kontekstlərdə necə istifadə olunduğunu izah edə bilir | Orta |
| 1905 | | Müxtəlif ünsiyyət üslublarının ünsiyyətin pozulmasına səbəb ola biləcəyini tənqidi şəkildə əks etdirə bilir | Orta |
| 1906 | | Ən azı bir sosial qrup və ya mədəniyyətdə tətbiq olunan fərqli ünsiyyət qaydalarını təsvir edə bilir | Orta |
| 1907 | | Müxtəlif auditoriyaların eyni məlumata necə fərqli mənalar yükləyə biləcəyini tənqidi şəkildə əks etdirir | Orta |
| 1908 | | Müxtəlif dil üslublarından istifadənin sosial və iş şəraitində bəzi təsirlərinin ola biləcəyini təsvir edə bilir | Orta |
| 1909 | | Mədəniyyətlərarası ünsiyyətin müxtəlif mədəniyyətlərə mənsub insanlar arasındakı münasibətlərə necə təsir göstərəcəyinə tənqidi yanaşa bilir | Orta Çətin |
| 1910 | | Bir şəxsin fərziyyələrinin, qərəzli fikirlərinin, qavrayış, inanc və qərarlarının danışdığı müəyyən dil(lər)dən necə asılı olduğunu tənqidi əks etdirə bilir | Orta Çətin |
| 1911 | | Müxtəlif dil üslublarından istifadənin sosial və iş şəratində bəzi təsirlərinin ola biləcəyinə tənqidi yanaşa bilir | Orta Çətin |
| 1912 | Açar 115 | Fərqli mədəniyyətlərə mənsub insanların onların nöqteyi-nəzəri baxımından özlərinə mənalı olan müxtəlif verbal və qeyri-verbal ünsiyyət qaydalarına niyə əməl etdiyini izah edə bilir | Çətin |
| 1913 | Açar 116 | Ən azı bir sosial qrup və ya mədəniyyətdə tətbiq olunan fərqli ünsiyyət qaydalarına tənqidi yanaşmağı bacarır | Çətin |

## 20 A. Siyasət, hüquq və insan hüquqları barədə biliklər və dünyanı tənqidi anlama

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2001 | Açar 117 | Demokratiya, azadlıq, vətəndaşlıq, hüquq və vəzifələr də daxil olmaqla əsas siyasi anlayışların mənasını izah edə bilir | Asan |
| 2002 | Açar 118 | Hər kəsin niyə başqalarının hüquqlarına hörmət etmək məsuliyyətinin olduğunu izah edə bilir | Asan |
| 2003 | | Ədalət, bərabərlik, qanun və qaydaların zəruriliyi və qanunun aliliyi də daxil olmaqla əsas hüquqi anlayışların mənasını izah edə bilir | Asan |
| 2004 | | İnsan hüquqları anlayışına tənqidi yanaşa bilir | Asan |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2005 | | Dövlətlərin insan hüquqları ilə bağlı öhdəliklərini təsvir edə bilir | Asan Orta |
| 2006 | | İnsan hüquqlarının universal, ayrılmaz və bölünməz mahiyyətini izah edə bilir | Orta |
| 2007 | | Qloballaşan dünyada insan hüquqları, demokratiya, sülh və təhlükəsizlik arasındakı əlaqəyə tənqidi yanaşmağı bacarır | Orta |
| 2008 | | İnsan hüquqlarının pozulmasına gətirib çıxaran proseslərdə öncədən mühakimə və stereotiplərin rolu da daxil olmaqla insan hüquqlarının pozulmasının əsas səbəblərinə tənqidi yanaşa bilir | Orta |
| 2009 | | Öz cəmiyyətində və icmada mövcud olan insan hüquqları ilə bağlı problemlərə tənqidi yanaşa bilir | Orta |
| 2010 | | Öz ölkəsində insan hüquqları ilə bağlı məsələlərə və ya hərəkatlara tənqidi yanaşa bilir | Orta |
| 2011 | | İnsan hüquqlarının dəyərlər çərçivəsinə və onun digər mənəvi, əxlaqi və dini dəyər çərçivələri ilə yaxın əlaqələrinə tənqidi yanaşa bilir | Orta Çətin |
| 2012 | | Vətəndaşların siyasətə təsir göstərə biləcəyi müxtəlif üsulları təsvir edə bilir | Çətin |
| 2013 | | İnsan hüquqları çərçivəsinin inkişafyönümlü mahiyyətinə və dünyanın müxtəlif bölgələrində insan hüquqlarının davamlı inkişafına tənqidi yanaşmağı bacarır | Çətin |
| 2014 | | Demokratik siyasi proseslərin mahiyyət və məqsədlərinə tənqidi yanaşmağı bacarır | Çətin |
| 2015 | | Hüququn mahiyyəti və məqsədlərinə tənqidi yanaşmağı bacarır | Çətin |

## 20 B. Mədəniyyət, mədəniyyətlər, dinlər barədə biliklər və tənqidi anlama

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2016 | Açar 119 | Başqa bir mədəniyyətə məxsus normaları (məs., yemək vərdişləri, salamlaşma qaydaları, insanlara müraciət formaları, nəzakətlilik) təsvir edə bilir | Asan |
| 2017 | Açar 120 | Şəxsi dünyagörüşünün bir çox dünyagörüşlərindən sadəcə biri olduğuna tənqidi yanaşa bilir | Asan |
| 2018 | | Bir sıra müxtəlif mədəniyyətləri, xüsusilə həmin mədəniyyətlərdəki ortaq dəyərləri, ənənələri və təcrübələri təsvir edə bilir | Asan |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2019 | | Mədəniyyətlərarası əlaqələrin hadisə və situasiyalara necə təsir göstərdiyinə tənqidi yanaşa bilir | Asan Orta |
| 2020 | | Müxtəlif dini ənənələr arasında mövcud olan ortaq və fərqli cəhətləri təsvir edə bilir | Asan Orta |
| 2021 | Açar 126 | Fərdi davranışların bütöv bir mədəniyyətlə ümumiləşdirilməsinin təhlükələrini izah edə bilir | Orta |
| 2022 | Açar 127 | Dini simvollara, dini ayinlərə və dilin dini məqsədlər üçün istifadəsinə tənqidi yanaşmağı bacarır | Orta |
| 2023 | | Bütün mədəni qrupların niyə ənənəvi mədəni mahiyyətə etiraz edən və bununla mübarizə aparan şəxsləri ehtiva etdiyini izah edə bilir | Orta |
| 2024 | | Dinlərin və qeyri-dini inancların cəmiyyətdə və ictimai həyatdakı roluna tənqidi yanaşmağı bacarır | Orta |
| 2025 | | Bütün mədəni qrupların niyə davamlı inkişaf etdiyini və dəyişdiyini izah edə bilir | Orta Çətin |
| 2026 | | Bütün mədəni qrupların daxilən niyə dəyişkən, müxtəlif və heterogen olduğunu izah edə bilir | Orta Çətin |
| 2027 | | Mədəniyyətlərdaxili davranış modellərində meydana gələn dəyişkənliyi təhlil edə bilir | Orta Çətin |
| 2028 | | Mədəniyyətlərarası davranış modellərində meydana gələn dəyişkənliyi təhlil edə bilir | Orta Çətin |
| 2029 | | Güc strukturlarının və mədəni qruplardakı ayrı-seçkilik hallarının gücsüz qrup üzvlərinin imkanlarını məhdudlaşdırmaq məqsədilə necə işlədiyinə tənqidi yanaşmağı bacarır | Orta Çətin |
| 2030 | | Xüsusi dini ənənələrin tarixinin əsas cəhətlərini təsvir edə bilir | Orta Çətin |
| 2031 | | Dinlər haqqındakı şəxsi təəssüratların həmin dinlərin standart dərslik nümunələrindən müxtəlif yollarla fərqlənməsi ehtimalına tənqidi yanaşmağı bacarır | Orta Çətin |
| 2032 | | Xüsusi dini ənənələrin əsas mətnlərini və başlıca doktrinalarını müəyyənləşdirir | Orta Çətin |
| 2033 | | Müəyyən dinlərə etiqad edən şəxslərin inanclarının, dəyərlərinin, müşahidə və təcrübələrinin əsas xüsusiyyətlərini təsvir edə bilir | Orta Çətin |
| 2034 | | Dinə inananların inanclarına, dəyərlərinə, müşahidə və təcrübələrinə tənqidi yanaşmağı bacarır | Orta Çətin |
| 2035 | Açar 132 | Özünəməxsus xüsusiyyətlərə malik mədəni qrupların niyə olmadığına aydınlıq gətirə bilir | Çətin |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2036 | Açar 133 | Bütün dini qrupların niyə davamlı inkişaf etdiyini və dəyişdiyini izah edə bilir | Çətin |
| 2037 | | Ayrı-ayrı dinlər içərisində mövcud olan inanc və təcrübələrin daxili müxtəlifliyini təsvir edə bilir | Çətin |

## 20 C. Tarix, media, iqtisadiyyat, ətraf mühit və dayanıqlılıq barədə biliklər və tənqidi anlama

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2038 | Açar 121 | Əhali artımı, əhalinin inkişafı, resursların istehlakı baxımından cəmiyyətin dünyaya təsirini qiymətləndirə bilir | Asan |
| 2039 | Açar 122 | Ətraf mühitə dəyən zərərlərlə əlaqəli risklərə tənqidi yanaşmağı bacarır | Asan |
| 2040 | | Qlobal cəmiyyətin ətraf mühitdən asılığına tənqidi yanaşa bilir | Asan |
| 2041 | | Dayanıqlı gələcək üçün tələb olunan dəyərlərə, davranışlara və həyat standartlarına tənqidi yanaşmağı bacarır | Asan |
| 2042 | | Məsuliyyətli istehlak ehtiyacına tənqidi yanaşmağı bacarır | Asan |
| 2043 | | Vətəndaşların və hökumətlərin ekoloji dayanıqlılığa töhfə vermək üsullarına tənqidi yanaşa bilir | Asan |
| 2044 | | Qlobal bərabərsizliyə tənqidi yanaşa bilir | Asan |
| 2045 | | Propaqandanın müasir dünyadakı təsirlərini təsvir edə bilir | Orta |
| 2046 | | Özlərini təxribatdan necə qoruyacaqlarını və ona necə nəzarət edə biləcəklərini insanlara izah edə bilir | Orta |
| 2047 | | Qərəzli təbliğatın nə olduğunu izah edə bilir | Orta |
| 2048 | | İnsanları propaqandaya qarşı həssas olmağa nəyin vadar etdiyini izah edə bilir | Orta |
| 2049 | | Tarixlərin etnosentrik nöqteyi-nəzərdən necə təqdim olunduğuna və öyrədildiyinə tənqidi yanaşmağı bacarır | Çətin |
| 2050 | | Milli iqtisadiyyatları və iqtisadiyyat və maliyyə proseslərinin cəmiyyətin fəaliyyətinə necə təsir göstərdiyini izah edə bilir | Çətin |
| 2051 | | Tarixin axıcı təbiətinə və keçmişin interpretasiyalarının zaman içərisində və mədəniyyətlər arasında necə dəyişdiyinə tənqidi yanaşa bilir | Çətin |

| ID | Açar № | Təsvir | Təsnifat |
|---|---|---|---|
| 2052 | | Müasir dünyanı formalaşdıran tarixi qüvvələr və amillər haqqında fərqli nöqteyi-nəzərlərdən müxtəlif təhkiyələrə tənqidi yanaşa bilir | Çətin |
| 2053 | | Vətəndaşlıq məfhumunun zaman keçdikcə fərqli mədəniyyətlərdə müxtəlif yollarla necə formalaşdığına tənqidi yanaşa bilir | Çətin |
| 2054 | | Müasir dünyanı formalaşdıran tarixi qüvvələr və amillər haqqında fərqli nöqteyi-nəzərlərdən müxtəlif təhkiyələrin ümumi təsvirini verə bilir | Çətin |
| 2055 | | Tarixi təhqiqat proseslərinə tənqidi yanaşmağı bacarır | Çətin |
| 2056 | | Qloballaşma ilə əlaqəli etik məsələlərə tənqidi yanaşmağı bacarır | Çətin |
| 2057 | | Qlobal cəmiyyətin iqtisadi qarşılıqlı asılılığına tənqidi yanaşmağı bacarır | Çətin |
| 2058 | | İqtisadi, sosial, siyasi və ekoloji proseslər arasındakı əlaqələrə tənqidi yanaşmağı bacarır | Çətin |
| 2059 | | Şəxsi seçimlərin, siyasi fəaliyyətin və istehlak nümunələrinin dünyanın digər yerlərində ola biləcək təsirlərini izah edə bilir | Çətin |



## 3-cü fəsil.

# Deskriptorların yaradılması, yoxlanılması və dəyərləndirilməsi prosesi

Demokratiya mədəniyyəti kompetensiyaları üçün deskriptorların işlənməsində əsas ilham mənbəyi Dillər üçün ümumi Avropa istinad çərçivəsi üzrə deskriptorların təkmilləşdirilməsi üçün hazırlanmış əvvəlki iş olmuşdur. Bu çərçivə üçün deskriptorların işlənməsinin uğurlu təcrübəsini nəzərə alaraq, hazırkı çərçivə üçün də kompetensiya deskriptorlarının formalaşdırılması, yoxlanılması və dəyərləndirilməsi prosesi həyata keçirilmişdir. Proses bir neçə mərhələdən ibarət idi:

1. Deskriptorların meyarlarını müəyyənləşdirmək.
2. Deskriptorların ilk böyük toplusunun ilkin variantının formalaşdırılması.
3. Ekspertlərin vətəhsil mütəxəssislərinin rəyinəəsasən deskriptorların seçilməsi.
4. Avropada müxtəlif təhsil şəraitindəseçilmiş deskriptorların sınaqdan keçirilməsi.
5. Deskriptorları müxtəlif səriştəsəviyyələrinəuyğunlaşdırmaq

## Deskriptorların meyarlarını müəyyənləşdirmək.

Əvvəlki çərçivə təcrübəsinə əsaslanaraq deskriptorların tərtib edilməsi üçün aşağıdakı meyarlar müəyyən edilmişdir:

- **Müxtəsərlik.** Deskriptorlar qısa olmalıdır. Onlar 25 sözdən artıq olmamalıdır.
- **Pozitivlik.** Hər deskriptor öz qabiliyyətini mənfi bir ifadə ilə deyil (məsələn, edə bilmir, uğursuzdur, məhdudlaşdıra bilər) deyil, müsbət bir ifadə ilə (məsələn, əks etdirir, bacarır, dəstəkləyir) çatdırmalı idi. Bu bir müəllimin «Bəli, bu insan bunu edə bilər / bu var (dəyər, yanaşma, bacarıq, bilik, anlayış)» və ya «Xeyr, bu şəxs bunu edə bilməz / bu yoxdur (dəyər, yanaşma, bacarıq, bilik, anlaşma) deməsinə imkan verəcəkdir.
- **Aydınlıq.** Hər bir deskriptor şəffaf olmalıdır və arqo yüklü olmamalıdır. O, nisbətən sadə qrammatikadan istifadə edilərək yazılmalı idi.
- **Müstəqillik.** Hər bir deskriptor digər bütün deskriptorlardan müstəqil olmalı idi. Başqa sözlə, hər bir deskriptorun qrupdakı digər deskriptorlar ilə bağlı bir mənası ola bilməzdi. Bu səbəbdən, deskriptorlarda sadə bir sözlə istifadə edərək (məsələn, zəif / orta / yaxşı, bir neçə / bəzi / çox / ən çox, kifayət qədər geniş / çox geniş) eyni ifadəni dəfələrlə istifadə etməkdən çəkindilər, əks halda bu maddələrin bir-birlərindən müstəqil olmamaları demək olardı.
- **Müəyyənlik.** Hər bir deskriptorun müvafiq bir dəyər / münasibət / bacarıq / bilik / anlayışın bir şəxs tərəfindən mənimsənildiyini və ya mənimsənilmədiyini göstərən konkret davranışları və ya nailiyyətləri təsvir etməsi lazımdır.

## Deskriptorların ilk böyük toplusunun ilkin variantının formalaşdırılması

Deskriptorların ilk böyük toplusunun ilkin variantının yaradılmasında çərçivə modelində göstərilən 20 kompetensiya üçün deskriptor və ya nailiyyətin ifadəsi kimi istifadə edilə bilən müvafiq ölçü vasitələri və ya qısa təsviri ifadələrdən istifadə olunmuşdur. Bu vasitə və ifadələr mövcud ölçülərdə, təhsil materiallarında, tədqiqat sənədlərində və siyasət sənədlərində ehtiva olunublar. Ümumilikdə bu təcrübədə 98 mənbə sənədindən istifadə edilmişdir. Bunlardan bəzi mənbələr deskriptorların birbaşa çıxarılmasına imkan vermədi, əksinə, deskriptoru tərtib edərkən kompetensiyaların aspektləri ilə bağlı faydalı məlumatlar verdilər və hər bir kompetensiyanın tam həcminin adekvat tutulduğunu iki dəfə yoxlamaq üçün istifadə edildi. Qaynaqlarda olan ölçü vasitələri və təsviri ifadələr qısa müddətdə deskriptor kimi istifadə edilə bilən qısa müstəqil ifadələr hazırlamaq üçün çıxarılmış və dəyişdirilmişdir. Bundan əlavə, nisbətən az miqdarda maddə və ya ifadələrin tapıldığı çərçivədəki kompetensiyalar üçün yeni deskriptorlar yazılmışdır. Ayrı-ayrı kompetensiyaların vacib aspektlərinin tam əhatə olunmadığı düşünülən yerlərdə yeni deskriptorlar yazılmışdır. Bu şəkildə tərtib edilən potensial deskriptorların sayı 2085-ə bərabər idi. Daha sonra bunlar birlikdə işləyən iki mütəxəssis tərəfindən yuxarıda göstərilən beş meyarın uyğunluğuna dair kritik bir araşdırmadan keçdilər. Bu prosesdən sonra 1371 ilkin deskriptorlar saxlanaraq seçim prosesinə daxil edildi.

## Deskriptorların seçilməsi.

Çərçivəni yaradan ekspert qrupunun üzvlərindən 1371 deskriptor variantından hər biri üçün əks-əlaqə vermələri və hər birinin hədəf kompetensiyası, aydınlığı, digər deskriptorlardan müstəqilliyi, konkretliyi, təhsildə mövcudluğu, və hədəf kompetensiyasının qiymətləndirməsinin əhəmiyyəti kimi məsələlərə diqqət yetirmələri xahiş olundu. Nəticədə səs çoxluğu və ekspert qrupunun müsbət rəylərini alan 990 deskriptor saxlanıldı.

Bu 990 deskriptor, daha sonra on dildə təqdim olunan onlayn anketdən istifadə edilərək Avropanın 15 ölkəsindəki təhsil mütəxəssislərinə əlavə rəy almaq üçün göndərildi. Anketdə müəllimlərdən, təlimçilərdən və digər təhsil mütəxəssislərindən deskriptorları müvafiq kompetensiyalarına görə (hər deskriptorun birmənalı olaraq yalnız bir kompetensiyaya uyğunlaşdırılmasını təmin etmək üçün) təyin etməyi, onları üç meyara (aydınlıq, konkretlik və müşahidə qabiliyyəti) görə qiymətləndirməyi, hər bir deskriptorun təhsilin müxtəlif səviyyələri üçün yararlılığını qiymətləndirmək və deskriptorlar ilə bağlı əks-əlaqə vermələri istənildi. Əks-əlaqə verən təhsil işçilərinin sayı 1236 nəfər idi və bunun əsasında səs çoxluğu almış və nəzərdə tutulan kompetensiyalara düzgün təyin olunmuş 559 deskriptor sonrakı mərhələ üçün saxlanıldı.

## Deskriptorların sınaqdan keçirilməsi

Seçilən 559 deskriptor, daha sonra öyrənənlər ilə birlikdə müxtəlif təhsil kontekstlərində sınaq istifadəsinə təqdim edildi. İdarə edilə bilən bir nümunə ölçüsünü qoruyarkən statistik tələblərə uyğun olmaq və deskriptorların şagirdlərə uyğunluğunu təmin etmək üçün yalnız 9 və yuxarı yaşlı şagirdlər cəlb edildi.

Sınaq prosesinin üç məqsədi var idi:

1. Deskriptorların konkret təhsil parametrlərindətəsdiqlənməsi.
2. Təcrübədəardıcıl olaraq istifadəediləbilməyən deskriptorları çıxarmaq.
3. Deskriptorları bacarıq səviyyələri iləəlaqələndirərək qiymətləndirmək.

Bu prosesə müxtəlif sosial-mədəni kontekstlərdə, eləcə də müxtəlif təhsil sistemlərində çalışan 16 ölkədən 858 müəllim dəstək göstərdi. Bu ölkələrdəki təhsil orqanlarının köməyi ilə müəllimlər təlim və seminarlar vasitəsilə bu prosesə xüsusi hazırlandıqdan sonra onlara məhdud sayda deskriptorların (181 ilə 194 arasında) etibarlılığını yoxlamaq tapşırığı verilmişdir. Bu məqsədlə, müəllimlərdən bir şagirdin davranışlarını bir sıra müvafiq fəaliyyət kontekstində izləmələri və müşahidənin aparılması zamanı deskriptorlardan istifadə etməklə öyrənmə zamanı hər deskriptorun göstərdiyi spesifik davranışı nümayiş etdirib-etdirmədiklərini müşahidə etmələri istənildi. Bundan sonra müəllimlərdən nəticələrini, habelə deskriptorların praktikada bir çox dildə təqdim olunan onlayn sual kitabçalarından istifadə rahatlığı barədə rəylərini təqdim etmələri tələb olundu. Sınaq istifadəsinə təqdim edilmiş 559 deskriptorun hər biri üçün 250-dən çox cavab alındı. Bu, məlumatların statistik işlənməsində əsaslı və etibarlı nəticələr üçün kifayətdir.

## Deskriptorları müxtəlif səriştəlilik səviyyələrinə uyğunlaşdırmaq

Əldə olunan məlumatlar, maddələrə cavab nəzəriyyəsinə (Rasch Analiz) əsaslanan metodologiya istifadə edilərək işlənmişdir. Bu analiz müəyyən bir səviyyədə maddələrin (kompetensiya deskriptorları) çətinlik dərəcələrinə görə sıralanmasına imkan verir (çərçivə modelinin müvafiq kompetensiya kompenenti). Belə bir təhlil aşağıdakılar haqqında qərar qəbul etməyə imkan verən məlumatlar yaradır: (a) konkret deskriptorun müvafiq kompetensiyalı komponentə uyğun olub-olmaması (yəni bu kompetensiya üçün uyğun deskriptor olub-olmaması); (b) deskriptorun uyğun gəldiyi səriştəlilik səviyyəsi.

Deskriptorları dərəcələndirmək məsələsi həssas bir məsələdir və gələcək iş üçün etibarlı, əsaslı və faydalı istinadı təmin etmək üçün ən yüksək elmi ciddiliklə həll edilməli idi. Çoxdilli onlayn sorğu anketləri vasitəsi ilə əldə olunan məlumatlar ixtisaslaşdırılmış proqram təminatından istifadə olunmaqla emal edilmiş və keyfiyyətli təhlilə təqdim edilmişdir.

Nəticə olaraq sınaqlara təqdim edilmiş 559 deskriptordan 447-nin yararlı olduğu təsdiqlənmişdir. Bundan əlavə, onlardan bəziləri üç səviyyədən (başlanğıc, orta və yüksək) biri ilə aydın şəkildə əlaqələndirilə bilər. Digərlərinin, etibarlı olmasına baxmayaraq, başlanğıc və orta səviyyələr arasında və ya orta ilə yüksək səviyyələr arasında yerləşdiyi müəyyən olunmuşdur.

Təsdiqlənmiş deskriptorların tam toplusundan, statistik məlumatlara və keyfiyyət analizinə əsasən 135 əsas deskriptor müəyyən olunmuşdur. İlkin məqsəd hər kompetensiya üçün hər bir səviyyəyə iki deskriptor təyin etmək idi. Bununla birlikdə, təhlil bu qayda üçün bəzi istisnaların edilməsini tələb etdi. Bəzi kompetensiyalar üçün hər səviyyəyə üç əsas deskriptor, «bilik və dünyanı tənqidi anlama» üçün hər səviyyəyə daha çox əsas deskriptor və yalnız bir təsdiqlənmiş deskriptor tələb olunur.



# Son

Hazırlanmış deskriptorlar çərçivə modelində olan kompetensiyaların şagirdlər tərəfindən göstərilə bilən konkret davranışlar baxımından işlədilməsini təmin etdikləri üçün çərçivəni təhsil şəraitində istifadə etmək istəyənlər üçün zəruri bir qaynaqdır.

Deskriptorlar bir çox müxtəlif məqsədlər üçün istifadə edilə bilər. Məsələn, bunlar Demokratiya mədəniyyəti kompetensiyalarında şagirdlərin bacarıqlarını artırmaq məqsədilə, eləcə də təlim fəaliyyətlərini və təhsil təşəbbüslərini tərtib etməli, həyata keçirməli və qiymətləndirməli olanlar üçün istifadə edilə bilər. Deskriptorlardan bu məqsədlər üçün istifadə etmək istəyən təhsil işçilərinə bu dərcin 3-cü cildində kurikulumların hazırlanması və pedaqogika üzrə 1 və 2-ci fəsilləri oxumaları tövsiyə olunur. Deskriptorlar sonrakı inkişaf sahələrini müəyyənləşdirmək üçün şagirdlərin mövcud səriştəlilik səviyyələrinin qiymətləndirilməsini dəstəkləmək və ya hər hansı öyrənmə prosesindən sonra səriştəlilik səviyyələrinin qiymətləndirilməsini dəstəkləmək məqsədilə də istifadə oluna bilər. Deskriptorlardan bu məqsədlərdən hər ikisi üçün istifadə etmək istəyən təhsil işçilərinə 3-cü clddə qiymətləndirmənin 3-cü fəslini oxumaq tövsiyə olunur. Deskriptorların istifadəçilərinə, həmçinin 1-ci cildin 7-ci

hissəsində deskriptorların necə istifadə edilməsi və ən vacibi necə istifadə edilməməsi ilə bağlı hissəni oxumaları tövsiyə olunur.

*Avropa Şurası insan hüquqları, demokratiya və qanunun aliliyini təbliğ edir və müdafiə edir. Bu prinsiplər onilliklər boyu Avropa cəmiyyətlərinin və siyasi sistemlərinin təməl daşları olmuşdur, ancaq iqtisadi və siyasi böhran dövründə belə onları qoruyub saxlamaq və dəstəkləmək lazımdır.*

*Əksər insanlar demokratiyanın xalqın tərəfindən və ya onun adından idarəetmə forması olduğunu və bunun nizamlı, azad və ədalətli seçkilər, çoxluğun idarəetməsi və hökumətin hesabatlılığını təmin edən qurumlar olmadan fəaliyyət göstərə bilməyəcəyi mövzusunda həmfikirdir. Lakin vətəndaşların özləri fəal olmadıqca, demokratik dəyərlərə və yanaşmalara sadiq qalmadıqca bu qurumlar fəaliyyət göstərə bilməzlər. Burada təhsilin mühüm rolu var və bu istinad çərçivəsi, demokratiya mədəniyyəti kompetensiyalarının tədrisində, öyrənilməsində və qiymətləndirilməsində təhsil sistemlərini dəstəkləyir və istifadə olunan yanaşmaların geniş dairəsinə diqqət çəkir.*

*Bu ikinci cilddə birinci cilddə təqdim olunan demokratiya mədəniyyəti kompetensiyalarının deskriptorları var. Bu deskriptorlar müəllimlərə təlim nəticələrini, öyrənmə müddətindən sonra qazanılan bacarıqları və gələcək inkişaf sahələrini müəyyənləşdirməyə kömək etmək məqsədi daşıyır. İstinad çərçivəsinin icrası ilə bağlı növbəti təlimat üçüncü cilddə təqdim olunur.*

*Avropa Şurası qitənin aparıcı insan hüquqları üzrə təşkilatıdır. Buraya 47 üzv dövlət daxildir, bunlardan 28-i Avropa Birliyinin üzvüdür. Bütün Avropa Şurasına üzv dövlətlər, insan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin qorunması üçün hazırlanmış müqaviləni, yəni Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıblar. Avropa İnsan Hüquqları Məhkəməsi konvensiyanın üzv ölkələrdə icrasına nəzarət edir.*

## Sales agents for publications of the Council of Europe
## Agents de vente des publications du Conseil de l'Europe

**BELGIUM/BELGIQUE**
La Librairie Européenne -
The European Bookshop
Rue de l'Orme, 1
BE-1040 BRUXELLES
Tel.: + 32 (0)2 231 04 35
Fax: + 32 (0)2 735 08 60
E-mail: info@libeurop.eu
http://www.libeurop.be

Jean De Lannoy/DL Services
c/o Michot Warehouses
Bergense steenweg 77
Chaussée de Mons
BE-1600 SINT PIETERS LEEUW
Fax: + 32 (0)2 706 52 27
E-mail: jean.de.lannoy@dl-servi.com
http://www.jean-de-lannoy.be

**CANADA**
Renouf Publishing Co. Ltd.
22-1010 Polytek Street
CDN-OTTAWA, ONT K1J 9J1
Tel.: + 1 613 745 2665
Fax: + 1 613 745 7660
Toll-Free Tel.: (866) 767-6766
E-mail: order.dept@renoufbooks.com
http://www.renoufbooks.com

**CROATIA/CROATIE**
Robert's Plus d.o.o.
Marasoviçeva 67
HR-21000 SPLIT
Tel.: + 385 21 315 800, 801, 802, 803
Fax: + 385 21 315 804
E-mail: robertsplus@robertsplus.hr

**CZECH REPUBLIC/
RÉPUBLIQUE TCHÈQUE**
Suweco CZ, s.r.o.
Klecakova 347
CZ-180 21 PRAHA 9
Tel.: + 420 2 424 59 204
Fax: + 420 2 848 21 646
E-mail: import@suweco.cz
http://www.suweco.cz

**DENMARK/DANEMARK**
GAD
Vimmelskaftet 32
DK-1161 KØBENHAVN K
Tel.: + 45 77 66 60 00
Fax: + 45 77 66 60 01
E-mail: reception@gad.dk
http://www.gad.dk

**FINLAND/FINLANDE**
Akateeminen Kirjakauppa
PO Box 128
Keskuskatu 1
FI-00100 HELSINKI
Tel.: + 358 (0)9 121 4430
Fax: + 358 (0)9 121 4242
E-mail: akatilaus@akateeminen.com
http://www.akateeminen.com

**FRANCE**
Please contact directly /
Merci de contacter directement
Council of Europe Publishing
Éditions du Conseil de l'Europe
F-67075 STRASBOURG Cedex
Tel.: + 33 (0)3 88 41 25 81
Fax: + 33 (0)3 88 41 39 10
E-mail: publishing@coe.int
http://book.coe.int

Librairie Kléber
1, rue des Francs-Bourgeois
F-67000 STRASBOURG
Tel.: + 33 (0)3 88 15 78 88
Fax: + 33 (0)3 88 15 78 80
E-mail: librairie-kleber@coe.int
http://www.librairie-kleber.com

**NORWAY/NORVÈGE**
Akademika
Postboks 84 Blindern
NO-0314 OSLO
Tel.: + 47 2 218 8100
Fax: + 47 2 218 8103
E-mail: support@akademika.no
http://www.akademika.no

**POLAND/POLOGNE**
Ars Polona JSC
25 Obroncow Street
PL-03-933 WARSZAWA
Tel.: + 48 (0)22 509 86 00
Fax: + 48 (0)22 509 86 10
E-mail: arspolona@arspolona.com.pl
http://www.arspolona.com.pl

**PORTUGAL**
Marka Lda
Rua dos Correeiros 61-3
PT-1100-162 LISBOA
Tel: 351 21 3224040
Fax: 351 21 3224044
E mail: apoio.clientes@marka.pt
www.marka.pt

**RUSSIAN FEDERATION/
FÉDÉRATION DE RUSSIE**
Ves Mir
17b, Butlerova ul. - Office 338
RU-117342 MOSCOW
Tel.: + 7 495 739 0971
Fax: + 7 495 739 0971
E-mail: orders@vesmirbooks.ru
http://www.vesmirbooks.ru

**SWITZERLAND/SUISSE**
Planetis Sàrl
16, chemin des Pins
CH-1273 ARZIER
Tel.: + 41 22 366 51 77
Fax: + 41 22 366 51 78
E-mail: info@planetis.ch

**TAIWAN**
Tycoon Information Inc.
5th Floor, No. 500, Chang-Chun Road
Taipei, Taiwan
Tel.: 886-2-8712 8886
Fax: 886-2-8712 4747, 8712 4777
E-mail: info@tycoon-info.com.tw
orders@tycoon-info.com.tw

**UNITED KINGDOM/ROYAUME-UNI**
The Stationery Office Ltd
PO Box 29
GB-NORWICH NR3 1GN
Tel.: + 44 (0)870 600 5522
Fax: + 44 (0)870 600 5533
E-mail: book.enquiries@tso.co.uk
http://www.tsoshop.co.uk

**UNITED STATES and CANADA/
ÉTATS-UNIS et CANADA**
Manhattan Publishing Co
670 White Plains Road
USA-10583 SCARSDALE, NY
Tel: + 1 914 472 4650
Fax: + 1 914 472 4316
E-mail: coe@manhattanpublishing.com
http://www.manhattanpublishing.com

**Council of Europe Publishing/Éditions du Conseil de l'Europe**
F-67075 STRASBOURG Cedex
Tel.: + 33 (0)3 88 41 25 81 – Fax: + 33 (0)3 88 41 39 10 – E-mail: publishing@coe.int – Website: http://book.coe.int

**Kompetensiya modelinədaxil edilmiş 20 kompetensiya**



Avropa Şurası insan haqlarını, demokratiyanı və qanunun aliliyini təbliğ edir və qoruyur. Bu prinsiplər illərlə Avropa cəmiyyətlərinin və siyasi sistemlərinin təməl daşları olmuşdur. Buna baxmayaraq, bu prinsiplərin daim qorunması lazımdır və ən azı iqtisadi və siyasi böhran dövrlərində vacibdir.

Əksər insanlar demokratiyanın xalq adından idarəetmə forması demək olduğu ilə razılaşacaqlar. Bu sistemin fəaliyyəti üçün elə qurumların olması lazımdır ki, o qurumlar müntəzəm, azad və ədalətli seçkiləri, çoxluğun hakimiyyətini və hökuməti təmin edən hesabatlılığı təqdim edə bilsin.

Lakin bu qurumlar vətəndaşların aktiv olmadığı müddətdə, onların demokratik dəyərlərə və münasibətlərə sadiq olmadığı bir zamanda fəaliyyət göstərə bilməz.

Bu prosesdə təhsilin mərkəzi rolu var və bu İstinad Çərçivəsi təhsildə tədris, öyrənmə və qiymətləndirmə sistemlərində demokratiya mədəniyyətini dəstəkləyir, əlaqəli bir mərkəz və geniş yanaşma təmin edir.

Bu ikinci cilddə birinci cilddə təqdim olunan demokratik mədəniyyət üçün səriştələrin təsvirləri var. Bu təsvirlər müəllimlərə öyrənmə nəticələrini, bir müddət öyrənildikdən sonra əldə edilmiş bacarıqları və gələcək inkişaf sahələrini müəyyənləşdirməyə kömək etmək məqsədi daşıyır. İstinad Çərçivəsinin tətbiqi ilə bağlı əlavə təlimat üçüncü cilddə verilmişdir.

PREMS 157123

DMK

www.coe.int

Avropa Şurası qitənin aparıcı insan haqları təşkilatıdır. O, Avropa İttifaqının bütün üzvləri daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqlarını, demokratiyanı və qanunun aliliyini qorumaq üçün nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi üzv dövlətlərdə Konvensiyanın icrasına nəzarət edir.

**Üç cilddən ibarət olan nəşrin 2-ci cildi**
**Ayrı-ayrı satılmamalıdır**

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE